AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**ƏLİAĞA XANLAR OĞLU ZEYNALOV**

# AZƏRBAYCANIN NEFT EMALI MÜƏSSİSƏLƏRİNDƏ LOGİSTİKA FƏALİYYƏTİNİN SƏMƏRƏLİ TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

**İxtisas: 5311.01 –Müəssisələrin təşkili və idarə edilməsi**

**İqtisad  üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

Dissertasiya işi ADNA-nın "Neft emalı və neft-kimya sahələrinin iqtisadiyyatı və menecment" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: İqtisad elmləri doktoru, professor **T.N.Əliyev**

Rəsmi opponentlər: İqtisad elmləri doktoru **Z.M.Nəcəfov**

İqtisad üzrə fəlsəfə doktoru **M.Ö.Pənahəliyeva**

Aparıcı təşkilat: **:** **Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrası**

Müdafiə 20 iyun 2014-cü il saat $16^{00}$ -da AMEA İqtisadiyyat İnstitutunun nəzdindəki FD.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 31, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının kitabxanasında tanış olmaq olar:

Avtoreferat 19 may 2014-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**Elmi katibi İqtisad üzrə**
**fəlsəfə doktoru, dosent** **G.S.Hacıyeva**

## İşin ümumi xarakteristikası

**Mövzunun aktuallığı.** Suverenlik illərində bazar iqtisadiyyatı modelinin geniş tətbiqi istiqamətində atılan inamlı addımlar Azərbaycanın sosial-iqtisadi həyatında uğurlu dəyişikliklərlə müşahidə olunur. Ölkəmizdə həyata keçirilən sistemli və geniş miqyaslı islahatlar iqtisadiyyatın dinamik inkişafını təmin etmiş və indi Azərbaycan Ümumi daxili Məhsulun orta illik artım tempinə, adambaşına düşən xarici investisiyanın məbləğinə, yoxsulluğun aşağı düşməsi, işsizliyin kəskin azalması və islahatların aparılması sürətinə görə dünyanın qabaqcıl ölkələri sırasındadır.

Azərbaycanın yeni neft-qaz strategiyası uzun illərdir ki, ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsinə çevrilmiş və onun bazar iqtisadiyyatının prinsipləri əsasında tədricən dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmişdir. Hazırda Azərbaycan dünyanın 150-дəн чох ölkəsi ilə xarici ticarət əlaqəsi aparır. «Əsrin müqaviləsi»nin imzalandığı dövrdən 2013-сц illədək ölkənin xarici ticarət dövriyyəsi 21,1 dəfə, o cümlədən ixracın həcmi 29,7 dəfə artmışdır. Artıq uzun illərdir ki, ölkəmizdən ixrac edilən məhsulların həcmində neft və neft məhsullarının xüsusi çəkisi 92%-dən yuxarıdır. Azərbaycan Respublikası Prezidentinin 14 fevral 2005-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı» nda, «Yanacaq energetika sahələrində fəaliyyət göstərən bütün müəssisə və təşkilatlarda yanacaq-enerji resurslarının istifadəsinin, itkilərinin və texnoloji sərflərin azaldılması haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 noyabr 2004-cü il tarixli sərəncamı və sonrakı illərdə edilən əlavələr və dəyişikliklər, AR DNŞ-nin müəssisələrinin Beynəlxalq Maliyyə Hesabatı Standartlarına keçid barədə Dövlət Neft Şirkətinin 8 yanvar 2008-ci il tarixli əmri və digər normativ-hüquqi aktlar ölkə YEK-nin tərkib hissəsi hesab edilən neft emalı sənayesində fəaliyyətin tənzimlənməsi, idarəetmə sisteminin təkmilləşdirilməsi, emal dərinliyinin artırılması, yeni texnologiyaların və məhsulların mənimsənilməsi, ənənəvi neft emalı məhsullarının modernləşdirilməsi, neft məhsullarının daxili və xarici bazarlarda satışı, neft emalı zavodlarının xalq təsərrüfatının digər sahələrinin inkişafında ətraf mühitin qorunmasındakı rolunun aktivləşdirilməsi və s. istiqamətlərdə önəmli tədbirlərin həyata keçirilməsinə təminat yaratmışdır.

Ölkə iqtisadiyyatında aparılan struktur dəyişiklikləri, AR DNŞ-də idarəetmə sisteminin təkmilləşdirilməsi, «hasilat–emal–satış» sxeminin neft sənayesində tətbiqi, ixrac əməliyyatlarında xərclərin idarə edilməsi üzərində nəzarətin gücləndirilməsi məqsədi ilə artıq uzun illərdir ki, neft emalı məhsullarının əsas hissəsi istehsalçılar tərəfindən deyil, AR DNŞ-nin «Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi» (M və İƏİ) tərəfindən həyata keçirilir. Hazırda dövlət mülkiyyəti formasında fəaliyyət göstərən neft emalı zavodları ölkədə aparılan sənaye siyasətinə uyğun layihə gücündən (20 mln.ton/il) xeyli aşağı səviyyədə (38%) işləyirlər. Buna baxmayaraq, təkrar emal prosesinin həyata keçirilməsi nəticəsində texnoloji prosesin emal dərinliyi 2000-ci ildə 52,3%-dən 2012-cи ildə 92,5%-ə çatdırılmışdır. 2005-2012-cu illərdə neft emalı məhsullarının pul ifadəsində həcmi 2,8 dəfə artsa da, onun ölkədə istehsal edilmiş sənaye məhsulunun ümumi həcmindəki xüsusi çəkisi 2,7 punkt azalaraq, 7,3%-ə enmişdir. Həmin dövrdə NEZ-lərdə çalışan işçilərin sayı 22,4% azalmışdır. Bu illər ərzində neft emalı sənayesinə 306 mln. manata yaxın vəsait yönəldilmiş və nəticədə, orada əsas fondların dəyəri 2012-cи ildə, 2005-ci ilə nisbətən, 2,8 dəfə artmışdır. Uzun illərdir ki, neft emalı zavodlarında katalitik krekinq, katalitik reforminq, tədrici kokslaşma, hidrotəmizləmə kimi müasir tipli ELOU-AVT qurğuları istismar edilir. Təhlilin əhatə etdiyi dövrdə bir çox neft emalı məhsullarının natural ifadədə həcmi və ixracı yüksələn xətlə artmışdır. Təkcə 2012-cи ildə ölkəmizdə istehsal edilən neft məhsulları dünyanın 72 ölkəsinə ixrac edilmişdir ki, bu da 2006-сы illə müqayisədə 44% artmışdır. Məlum olduğu kimi, neft emalı zavodları enerji və material tutumludur. Odur ki, həmin resurslardan səmərəli istifadə etmək və zavodların işinin fasiləsizliyini və səmərəliliyini təmin etmək istiqamətində tədqiqatların aparılması aktuallığı artmışdır.

**Problemin öyrənilmə səviyyəsi.** Müstəqillik illərində Azərbaycanın tanınmış iqtisadçı alimlərindən Z.Ə.Səmədzadə, A.A.Nadirov, A.K.Ələsgərov, Ş.M.Muradov, T.Ə.Quliyev, T.Ə.Hüseynov, V.T.Novruzov, M.C.Atakişiyev, M.Ə.Əhmədov, İ.H.Alıyev, Ə.X.Nuriyev, T.N.Hüseynov, F.H.Qasımov, R.T.Həsənov, R.M.Cəbiyev, A.B.Abbasov, Ş.S.Qafarov, R.P.Sultanova, G.Z.Yüzbaşova, E.M.Hacızadə və başqaları ölkədə həyata keçirilən sistemli iqtisadi islahatların konsepsiyasına, onun nəzəri əsaslarına, əldə edilmiş uğurların yekunlarına çoxsaylı məqalələr, monoqrafiyalar və elmi-tədqiqat işləri həsr etmişlər.

Yanacaq-enerji, kimya, neft emalı sahələrinin aktual iqtisadi problemləri N.A.Əliyev, T.N.Əliyev, R.M.Əliyev, B.S.Xıdırov, B.Ə. Əhmədov, M.A.Məmmədov, S.Q.Cümşüdov, S.A.İsayev və başqalarının əsərlərində geniş tədqiq edilmiş, əməli-metodiki xarakterli tövsiyələr irəli sürülmüşdür.

Tədqiqat işi aparılarkən, müəllif yaxın və uzaq xarici ölkələrin alimlərinin: Andreyev A.F., Zlotnikova L.Q., Malışev Y.M., Vlaskin Q.A., Volkoqonova O.D., Vorobyov A.K., Qellovey L., Zevakov A.M., İldemenov S.V., Fatxutdinov R.A. və başqalarının logistikanın təşkili və idarə edilməsinə həsr edilmiş əsərləri ilə tanış olmuş və onların tədqiqatlarından bəhrələnmişdir. Lakin bazar iqtisadiyyatı sisteminə keçidlə əlaqədar uzun illər material və istehsal resurslarının mübadiləsi sferasında mütləq üstünlüyə malik olan maddi-texniki təchizat (MTT) sistemi ölkədə aparılan geniş miqyaslı islahatların nəticəsində mühüm kəmiyyət və keyfiyyət dəyişikliklərinə məruz qalmışdır.

Neft məhsullarının tələbatçılara çatdırılmasında, neft emalı zavodlarında (NEZ) marketinqin təşkili və idarə edilməsi, NEZ-lərin xammalla onların istehsal güclərinə uyğun təmin edilməsində bir sıra boşluqlar yaranmışdır. Həmin boşluqların aradan qaldırılması NEZ-lərdə istehsalın səmərəli təşkili və idarə edilməsi prosesində logistika konsepsiyasının yeni iqtisadi şəraitin tələblərinə uyğun və beynəlxalq təcrübə əsasında formalaşdırılması zərurətini yaratmışdır.

Bütün bunlar toxunulan problemin mühüm nəzəri və tədqiq edilən müəssisələr üçün əməli əhəmiyyətinin elmi baxımından öyrənilməsi zərurətini əsaslandırır,tədqiqatın məqsəd və vəzifələrini müəyyən edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi aşağı güclə işləyən, xalq təsərrüfatının digər iqtisadi fəaliyyət sahələrinin xammal və materiallarla təminatından mühüm yol oynayan neft emalı müəssisələrində istehsalat prosesləri və bölüşdürücü logistikanın səmərəli təşkili və idarə edilməsi üzrə nəzəri-metodiki və təşkilati-iqtisadi xarakterli tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

Bu məqsədə nail olmaq üçün tədqiqatın vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Mövzuya dair respublikamızın və xarici ölkə alimlərinin əsərlərinin öyrənilib ümumiləşdirilməsi əsasında neft emalı müəssisələrində logistikanın təşkili və idarə edilməsinin nəzəri-metodoloji aspektlərini tədqiq etmək;
- Neft emalı müəssisələrində logistika konsepsiyasının metodiki aspektlərini və bölüşdürücü logistikanın təşkili mexanizmini

formalaşdırmaq;

- Neft emalı müəssisələrinin istehsal quruluşu, texniki-texnoloji xüsusiyyətlərinə uyğun onların xammal təchizatının mövcud vəziyyətini tədqiq etmək;
- Çoxillik statistik, ilkin uçot və hesabat sənədlərinin məlumatları əsasında neft emalı müəssisələrində istehsalat prosesləri və bölüşdürücü logistikanın təşkilinin mövcud vəziyyətini qiymətləndirmək;
- Neft emalı məhsullarının daxil və xarici bazarlarda satışının intensivliyini müəyyən etmək;
- Neft emalı müəssisələrində logistika strategiyasının həyata keçirilməsi üzrə təkmilləşdirilmiş mexanizmi formalaşdırmaq;
- Tədqiq edilən müəssisələrdə logistika fəaliyyətinin səmərəli təşkili və idarə edilməsi üzrə əməli xarakterli təklif və tövsiyələr işləyib hazırlamaq.

**Tədqiqatın obyektini** Azərbaycanın yanacaq-enerji kompleksi və onun üzvi tərkib hissəsi olan H.Əliyev adına Bakı neft emalı zavodu və «Azərneftyağ» NEZ təşkil edr.

**Tədqiqatın predmetini** neft emalı müəssisələrində logistika fəaliyyətinin formalaşması, təşkili və idarə edilməsinin nəzəri-praktiki məsələləri təşkil edr.

**Tədqiqatın nəzəri və metodoloji əsaslarını** xarici və respublika iqtisadçı-alimlərinin tədqiqatları, logistikaya dair nəzəriyyələrin əsas müddəaları, YEK üzrə sahə xarakterli normativ-texniki sənədlər təşkil edir.

Tədqiqatın işlənilməsində Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş qanunlar, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Nazirlər Kabinetinin qərarları, AR DNŞ-nin əmrlərdən istifadə edilmişdir.

Tədqiqat prosesində nəzəri ümumiləşdirmə, statistik qruplaşdırma, müqayisəli-iqtisadi təhlil, sistemli və konseptual yanaşma üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, AR DNŞ-nin və onun tabeliyində olan müəssisə və təşkilatların rəsmi hesabatları, ilkin uçot və hesabat sənədlərinin məlumatları, eləcə də iqtisadi ədəbiyyatlarda dərc olunmuş materiallar təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- Neft emalı müəssisələrinin spesifik xüsusiyyəti nəzərə alınmaqla logistikanın təkmil tərifi formalaşdırılmışdır;
- Logistikanın nəzəri-metodoloji əsaslarının tərkib hissələrini özündə əks etdirən sxem təklif edilmişdir;
- NEZ-də material resurslarının tədarükü proseslərinin təşkilinin mərhələləri üzrə logistika axınının hərəkət sxemi, məhsulların bölüşdürülməsi siyasətinin formalaşması və həyata keçirilməsi prosesinin, logistik sistemin təhlili metodikalarının prinsipial sxemləri işlənilmişdir;
- Logistika xərclərinin müxtəlif meyarlar üzrə təsnifatı sxem şəklində tərtib edilmiş, məcmu logistik xərclərin səviyyəsinin hesablanması üçün metodika təklif olunmuş, xərclərin azaldılması üzrə əməli xarakterli tövsiyələr işlənilmişdir;
- NEZ-lərdə texnoloji proseslərin və əməliyyatların səmərəli təşkilinin başlıca istiqamətləri, onların alt-sistemləri və icra mexanizminin quruluşu sxem şəklində təklif edilmişdir;
- Mövcud NEZ-lərin istehsal güclərindən səmərəli istifadə edilməsi şəraitində və yeni yaradılacaq neft emalı kompleksində marketinqin idarə edilməsinin funksional məhsul və funksional bazar prinsipləri üzrə strukturlarından istifadənin məqsədəuyğunluğu əsaslandırılmışdır.

**Tədqiqat işinin nəzəri-praktiki əhəmiyyəti** ondan ibarətdir ki, alınmış nəticələrdən Sənaye-Energetika Nazirliyi, AR DNŞ, «Azərkimya» İB, «Azərenerji» ASC müvafiq kompleks inkişaf proqramlarının tərtib olunmasında neft emalı müəssisələrinin iqtisadi potensialından, material və enerji resurslarından səmərəli istifadə edilməsində, sahənin diversifikasiya prosesinin genişləndirilməsində, NEZ-lərin istehsal güclərinin intensivləşdirilməsində, kooperasiya əlaqələrinin genişləndirilməsində, istehsalat və bölüşdürücü logistika fəaliyyətinin düzgün təşkili və idarə edilməsində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin ayrı-ayrı müddəaları, işlənib hazırlanan əməli xarakterli təklif və tövsiyələr 2008-ci ildə aspirantların və gənc tədqiqatçıların Respublika Elmi Konfransında (Bakı, 5-6 may 2008); «Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri» mövzusunda Respublika EPK-da (Bakı,

2010); «Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı» mövzusunda beynəlxalq EPK-da (Bakı, 2011) məruzə edilmişdir.

Dissertasiya işinin mövzusunu əhatə edən ümumi həcmi 2,65 ç.v. həcmində 9 məqalə, konfrans materialı və tezis dərc olunmuşdur.

Tədqiqat nəticəsində irəli sürülən təklif və tövsiyələr H.Əliyev adına BNEZ-ə təqdim edilmiş və onların istifadə olunması haqqında müvafiq arayış alınmışdır (Arayış № 16/09/2135, 14 iyun 2011-ci il).

**İşin həcmi və quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, 8 yarımfəsil, nəticə və təkliflərdən, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya 30 şəkil və sxem, 24 cədvəli əks etdirən 169 səhifədən ibarətdir.

## Tədqiqatın əsas məzmunu

**Girişdə** seçilən mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi, tədqiqatın məqsədi və vəzifələri, obyekti və predmeti, nəzəri - metodoloji əsası, informasiya bazası, tədqiqat üsulları göstərilir, işin elmi yeniliyi, təcrübi əhəmiyyəti və aprobasiyası şərh edilir.

Dissertasiyanın **«Neft emalı müəssisələrində logistikanın təşkili və idarə edilməsinin nəzəri-metodoloji aspektləri»** adlı birinci fəslində respublikamızın xarici ölkələrin alimlərinin mövzuya dair əsərlərinin öyrənilib ümumiləşdirilməsi əsasında logistikanın mahiyyəti, məzmunu və tarixi inkişaf mərhələləri, onun təşkilinin nəzəri-metodoloji aspektləri, eləcə də logistik konsepsiyanın formalaşmasının metodiki səmtləri tədqiq və şərh edilmişdir.

Qeyd edilir ki, rəqabət mübarizəsinin hər vasitə ilə gücləndiyi şəraitdə hər bir təsərrüfat subyekti bütün növ resursların istehsal-tədavül sferasında səmərəli idarə edilməsini təmin etmək üçün müasir elm və təcrübə fəaliyyəti sferası hesab edilən logistikaya böyük ehtiyac duyur.

İşdə logistikanın tarixi inkişaf mərhələlərində ona verilən çox-saylı təriflərin məzmunu açıqlanmış və onun inkişaf mərhələlərinin prinsipial sxemi verilmişdir. Logistikanın inkişafının sonuncu və müasir mərhələsi inteqrasiya dövrü kimi səciyyələnərək çevik istehsal sistemləri və texnologiyalarının, İKT-nin, mikroprosessor texnologiyasının geniş tətbiqi şəraitində inteqrativ bölüşdürmə funksiyasını yerinə yetirmişdir. Artıq uzun illərdir ki, inteqrativ logistikanın – istehsal, tədarük, bölüşdürücü, nəqliyyat, anbar, informasiya logistikası kimi

sərbəst istiqamətləri formalaşmışdır. Bu dövr dünya iqtisadiyyatında logistik fenomenin «yüksəlişi» kimi başlıca dəyişikliklərin baş verməsi ilə şərtləşmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının (İKT) geniş tətbiqi logistikanın təşkili və idarə edilməsi üçün geniş üfüqlər açmışdır. Nəticədə, istehlakçıların xammal, material və hazır məhsullarla təminatı işi yaxşılaşmış, işçilərin peşəkarlıq səviyyəsi artmış, istehsalçı müəssisələr haqqında tədarük və satış bazarlarında yüksək imic formalaşmışdır. Bazar iqtisadiyyatı şəraitində logistika digər aspektləri ilə yanaşı material resurslarının vaxta və məkana görə yerdəyişməsi üzrə fəaliyyətinin bütün növlərini əhatə edir. Logistikanın funksiyaları istehsalın və material resurslarının bütün mərhələlərində həyata keçirilir. Onun başlıca məqsədi-tələbin ödənilməsi, yüklərin vaxtında və daha az xərclə daşınmasının təmin edilməsi üçün material ehtiyatlarının və informasiya axınının səmərəli idarə edilməsidir. O, logistik sistemin strukturunu və əsas funksiyalarını müəyyən edir. Yeni iqtisadi şəraitdə müəssisədə idarə olunan prosesin fasiləsizliyi və səmərəliliyinin təmin edilməsinin ən başlıca amili orada maddi-texniki təminatın düzgün təşkil edilməsidir. Bu məqsədlə hər bir iş yerinə (texnoloji qurğuya, prosesə) tələb olunan əsas və köməkçi materialların (reagentlərin, katalizatorların, yarımfabrikatların və s.) gətirilməsinin təmin edilməsi və müəssisədə material və enerji ehtiyatlarının optimal səviyyəsinin saxlanılmasıdır. Həmin vəzifənin yerinə yetirilməsi üçün logistik yanaşmanın tədqiqinə ehtiyac duyulur. İşdə beynəlxalq təcrübədən istifadə edərək, logistik təşkilatların yaranmasına yanaşmaların prinsipial sxemi verilmişdir. Logistika müasir biznesin inkişafında mühüm strateji rol oynayır və onun inkişaf meylini bir sıra amillər formalaşdırır. İşdə həmin amillərin təsnifatı verilməklə qeyd edilir ki, logistika özündə maddi-texniki təchizatın təşkilinin, anbar təsərrüfatının, nəqliyyat sisteminin, kadrla təminat, material ehtiyatlarının yaradılması, təşkilati-informasiya sistemlərinin, kommersiya fəaliyyətinin və s. idarə edilməsi prosesini cəmləşdirir. Həmin prosesin idarə edilməsi logistik sistemin düzgün təsnifləşdirilməsini tələb edir. Bu baxımdan, logistik sistem makro və mikro idarəetmə səviyyələrinin qarşılıqlı və bir-birini tamamlayan formada təzahür edilməlidir. İnformasiya texnologiyaları sahəsində dünyada baş verən inqilabi dəyişikliklər sübut etdi ki, xammal, material, yarımfabrikat, hazır məhsul və s. axınları ilə bərabər informasiya axınları da logistik idarəetmənin obyektidir və onların təcrübədə eyniləşdirilməsi logistik problemlərin aydın dərk edilməsini şərtləşdirir.Neft emalı müəssisələrinin spesifik xüsusiyyəti logistikanın mövcud tərifinin tam məzmunda

onlara şamil edilməsini təsdiqləmir.Əvvəla, NEZ-lərin bir çox məhsulları digər sənaye sahəsi üçün xammal kimi çıxış edir, xidmət rolunu oynayır və əlavə dəyər yaradır. Bu baxımdan servis xidməti nəzərə alınmalıdır. İkincisi, müəssisələrarası kooperasiya əlaqələri müəssisədaxili logistikaya aid edilir və xərclərin son həddini nəzərə almır. Üçüncüsü, neft emalı məhsulları tələbatçılara satış təşkilatları tərəfindən çatdırılır və nəticədə, logistika xərcləri hər bir idarəetmə səviyyəsində dəyişir. Dördüncüsü, NEZ-lərin xammalla təchizatına, tələb və təklifin səviyyəsi ilə yanaşı, dövlətin qəbul etdiyi müvafiq sənaye strategiyası da təsir göstərir. Odur ki, neft emalı sənayesində logistikanın təşkili, idarəetməsi və kooperasiya olunan müəssisələrlə əlaqəsinin tənzimlənməsi prosesində sadalanan şərtlər nəzərə alınmalıdır.

Deməli, logistika – iqtisadiyyatın tənzimlənmə mexanizmi çərçivəsində istehsal və istehlak sferalarının işinin fasiləsizliyinə, səmərəliliyinə, yüksək xidmət səviyyəsinə və strateji inkişafına təminat yaradan, rəqabət mühitinə tab gətirən, mikro və makro-iqtisadi səviyyələrin sintezində menecmentin bütün metodlarını və funksiyalarını həyata keçirən prosesdir.

Logistika sisteminə qloballaşan biznes prosesinin tərkib hissəsi kimi baxılmalıdır. Başqa sözlə, makro-logistika sisteminin inkişaf meylləri artıq qloballaşma meyli kimi təzahür edilir. Bu baxımdan işdə qlobal logistikanın prinsipial sxemi təklif edilmişdir.

Bazar iqtisadiyyatı şəraitində dövlət və xüsusi sektorlarda logistikaya olan tələbat getdikcə artır. İşdə həmin tələbatın əmələ gəlməsi prosesini özündə əks etdirən sxem təklif edilmiş, qlobal logistik şəbəkənin arxitekturası formalaşdırılmış, onun transmilli korporasiyalar sistemində istifadəsinin əsas elementləri fərqləndirilmişdir. Uzun illər bazar iqtisadiyyatı modeli ilə inkişaf edən ölkələrdə qlobal logistikanın obyektləri kimi – Transmilli Korporasiyalar (TMK), Maliyyə-Sənaye Qrupları (MSQ) və Azad İqtisadi Zonalar (AİZ) çıxış edirlər. Təəssüflə qeyd etmək lazımdır ki, hələlik respublikamızda qlobal logistikanın adı çəkilən obyektləri tam səlahiyyətdə təşkil edilməmişdir və bu iş özünün ilk və başlanğıc mərhələsindədir. Fikrimizcə, TMK, AİZ və MSQ-nın respublikamızın müxtəlif şəhər və bölgələrində yaradılması logistik sistemin yeni müstəvidə formalaşması və inkişafına təminat yaratmış olacaqdır. Azərbaycanın qədim İpək Yolu üzərində yerləşməsi bu ölkədə Beynəlxalq Nəqliyyat dəhlizi sisteminin tammiqyaslı təşkilinə, qlobal nəqliyyat imkanlarının genişlənməsinə, QLS-nə müasir texnologiyaların cəlb edilməsinə, telekommunikasiya və informasiya təminatının

yaxşılaşmasına imkan yaratmaqla, qlobal kommunikasiya infrastrukturunun formalaşmasına təminat yaratmış olardı. Hazırda Azərbaycanın bir çox beynəlxalq layihələrin həyata keçirilməsi prosesinə qoşulması da ölkənin QLS-ə inteqrasiyasını sürətləndirmişdir. Həmin nöqsanları aradan qaldırmaq üçün hələ 1995-ci ildə Rusiyada qlobal nəqliyyat-logistika sisteminin işlənilməsi və tətbiqi üzrə fəal tədqiqatlar aparılmış və onun nəticəsində ölkənin şimal regionlarında adı çəkilən sistem yaradılmışdır. Fikrimizcə, həmin təcrübənin Azərbaycanda tətbiqi çoxsaylı nəqliyyat-logistik firmalarının və vasitəçilərin işini vahid mərkəzdən idarə və koordinasiya etməyə, tələbatçılara səmərəli xidmət göstərməyə imkan yaradardı. Bu məqsədlə ARDNŞ sistemində regional nəqliyyat-logistik İnzibati Mərkəzinin yaradılması bir sıra problemlərin həllinə təminat yaratmış olardı. İşdə həmin problemlərin tam təsnifatı verilmişdir.

İşdə logistika menecmentində satınalma üzrə xərclərin əsas istiqamətləri müəyyən edilmiş, onların qeyri-səmərəli idarə edilməsinin səbəbləri açıqlanmışdır. Qeyd edilir ki, NEZ-lərdə marketinqin təşkili, material resurslarının logistikası işi logistika menecmentinin təcrübədə istifadə edilən mütərəqqi forma və metodlarının tələblərinə uyğun təşkil edilməmişdir. Xammal və materialların satın alınması prosesində qiymət amili üzrə müvafiq təşkilati iş aparılmadığından həmin amilin zavodların maliyyə təsərrüfat fəaliyyətinin pisləşməsinə təsiri üstünlük təşkil edir. Zavodlarda çox vaxt satınalma xərclərinin kalkulyasiyası tərtib edilmir. Xammal və materialların daşınmasında və hazır məhsulun tələbatçıya çatdırılması prosesində bəzən kənar nəqliyyat təşkilatlarının xidmətlərinə üstünlük verildiyindən daşınmanın məbləği müstəqim və qeyri-istehsal xərclərinin hesabına artır. İşdə istehsalçı-müəssisələrdə məhsulun bölüşdürülməsi siyasətinin formalaşması və həyata keçirilməsi prosesinin prinsipial sxemi göstərilmiş, bölüşdürücü logistikanın funksiyaları və ənənəvi satışdan fərqli cəhətləri göstərilmiş, onlardan NEZ-də istifadənin mövcud vəziyyətinə qiymət verilmişdir.

Müəllifin fikrincə, nisbətən yeni emal texnologiyasına və qurğularına malik H.Əliyev adına Bakı NEZ-də logistikanın beynəlxalq təcrübədə geniş istifadə edilən «Dəqiq vaxtında», «dərhal reaksiya vermək» konsepsiyalarından, eləcə də Yaponiyanın qabaqcıl formalarında uzun müddət uğurla istifadə edilən «KANBAN» mikrologistik sistem konsepsiyasından istifadə edilməlidir. İşdə həmin konsepsiyaların mahiyyəti və üzvi elementlərinin təsnifatı şərh olunmuşdur.

Tədqiqat işinin «**Neft emalı müəssisələrində logistika fəaliyyətinin təşkili və idarə edilməsinin mövcud vəziyyətinin təhlili**» adlı ikinci fəslində çoxillik statistik, ilkin uçot və hesabat sənədlərinin məlumatları əsasında NEZ-lərdə xammalın emalı, material, yanacaq-enerji resurslarından istifadənin və xalq təsərrüfatı sahələrinin logistik təminatının və müəssisələrdə istehsal prosesləri logistikasının təşkilinin mövcud vəziyyəti təhlil edilmiş, bölüşdürücü logistikanın təşkili qiymətləndirilmişdir.

NEZ-lərdə istehsal edilən neft məhsullarının çeşidi yüzlərlə adda fərqləndirilir. Azərbaycanda fəaliyyətdə olan H.Əliyev ad. BNEZ – yanacaq profili, «Azərneftyanacaq» NEZ isə – yanacaq-yağ profili müəssisə kimi çıxış edir. Hazırda adı çəkilən zavodların yeidənqurmadan sonra istehsal gücü 20 mln. ton xam neft emalıdır. Bu zavodlarda Azərbaycan neftinin, demək olar ki, bütün növləri (onlar 24 növdür) emal edilir. NEZ-lərdə 40 növdən çox neft məhsulları istehsal edilir. Hazırda neft emalı zavodlarında aşağıdakı əsas növ neft məhsulları istehsal edilir: avtomobil benzinləri, nafta, reaktiv mühərrik yanacağı, ağ neft, dizel yanacağı, məişət soba yanacağı, soba mazutu, neft bitumu, neft koksu, sürgü yağları və maye qazlar. NEZ-lərdə həyata keçirilən texniki-texnoloji tədbirlər nəticəsində emal dərinliyi 1980-ci ildə 49,2%-dən 2012-cи ildə 92,5%-ə çatmışdır ki, bu da əsas istehsal fondlarının aşınma səviyyəsi 56,5% olan emal zavodları üçün ən yüksək göstəricidir. Lakin NEZ-lərdə istehsal edilən neft emalı məhsullarının texniki-texnoloji parametrləri dünya və Avropa standartlarının tələblərinə tam cavab vermir. Neft emalı zavodlarının logistik təminatı prosesində iştirakına qiymət verərkən ilk növbədə onların xammalla təminatına qiymət vermək vacibdir. Dövlət mülkiyyətində olan iki iri NEZ-in illik istehsal gücü 20 mlyn. ton xam neftdir. Lakin müxtəlif obyektiv və subyektiv səbəblərdən həmin gücdən 31% səviyyəsində istifadə edilir. NEZ-lər üzrə emalın həcmini xarakterizə edən məlumatlar 1 saylı cədvəldə verilmişdir.

**Cədvəl 1.**

**Azərbaycanda neft emalının həcmi (min ton)**

| Zavodların adları | İllər | | | | | 2005-2012-си illərdə artım tempi (%-lə) |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2006 | 2010 | 2011 | 2012 | |
| Neft emalı, cəmi O cümlədən | 7392,6 | 7450,7 | 6221 | 6327 | 6172 | 83,5 |
| H.Əliyev ad. Bakı neft emalı zavodu | 3923,1 | 4278,8 | 4407 | 4342,5 | 4002,5 | 103,0 |
| «Azərneftyağ» neft emalı zavodu | 3469,2 | 3171,9 | 1814 | 1984,4 | 2170 | 62,6 |

Mənbə: Cədvəl ARDNŞ-nin illik hesabatının məlumatları əsasında tərtib edilib hesablanmışdır

Cədvəldən göründüyü kimi, 2005-2012-си illər ərzində neft emalının həcmi bütünlükdə 16,5%, o cümlədən «Azərneftyağ» NEZ-də 37,4% azalmışdır. NEZ-lərdə istehsal güclərindən istifadəyə qiymət verərkən aydın olur ki, 2008-ci ildə emal edilən xam neftin 4780,1 min tonu və yaxud 65,1%-i, 2009-cu ildə – 4053,1 min ton (67,2%-i) ,2010 – су илдя 4407 мин тон(70,8%),2012-дя ися - 4002,5 мин тон (60,4%) H.Əliyev ad. Bakı NEZ-in payına düşmüşdür.

Nəticədə 2008-ci ildə həmin zavodun istehsal gücündən 59,7%; 2012-си ildə isə – 50,3% istifadə edilmişdir.

«Azərneftyağ» NEZ-in istehsal gücündən isə uyğun olaraq: 21,7% və 16,7% istifadə olunmuşdur. Bütünlükdə, hər iki NEZ üzrə emal edilən xam neftin həcmi 2012-си ildə əvvəlki ilə nisbətən 4,4% azalmışdır. NEZ-lərin aşağı güclə işləməsi bütünlükdə kimya sənayesi müəssisələrinin xammal təchizatı prosesinə mənfi təsir göstərir.

NEZ-lərin xalq təsərrüfatı sahələrinin logistik təminatı prosesindəki yeri və rolu 1 saylı şəkildə göstərilmişdir. Şəkildən göründüyü kimi, NEZ-lər ölkəmizin kimya və neft-kimya sektoruna xammal və reagent qismində – nafta, propilen, ilkin benzin, butan-butilen fraksiyaları, ağ neft, reaktiv mühərrik yanacağı və s. göndərirlər.




**Şəkil 1. Azərbaycanın neft emalı müəssisələrinin xalq təsərrüfatı sahələrinin logistik təminatı prosesində yeri və rolu**

Bununla yanaşı, NEZ-lər «Azərenerji» ASC-yə və müxtəlif təyinatlı MMC-lərə M-40 və M-100 markalı soba mazutu; müxtəlif idarəetmə formalarında fəaliyyət göstərən müəssisə və təşkilatlara KT-Q markalı neft koksu, ağ neft, yüngül və ağır fleqma, qələvi turşusu və onların tullantıları, naften turşusu, bitum, qudron, məişət maye qazı satır və həmin məhsulların bir qismini ixrac edirlər. İşdə NEZ-lərdə katalizator və riagentlərin normaya uyğun sərfi, məhsulun keyfiyyətinə nəzarət, NEZ-lərin yanacaq-enerji resursları sərfi, neft və neft məhsullarının NEZ-lər üzrə faktiki itkilərinin qurğular üzrə miqdarı ətraflı təhlil edilmiş və bu sahədə yol verilən nöqsanlar aşkar edilmişdir.

NEZ-lərdə ARDNŞ-nin yanaşması əsasında hesablanmış emal dərinliyinin səviyyəsi və açıq rəngli məhsulların xüsusi çəkisi 2 saylı cədvəldə verilmişdir.

**Cədvəl 2.**

**Azərbaycanın neft emalı zavodlarında emal dərinliyinin səviyyəsi və açıq rəngli məhsulların xüsusi çəkisi**

| NEZ-lərin adları | Açıq rəngli neft məhsullarının xüsusi çəkisi (%-lə) | | | Emal dərinliyi (%-lə) | | |
|---|---|---|---|---|---|---|
| | 2008 | 2009 | 2012 | 2008 | 2009 | 2012 |
| H.Əliyev ad. Bakı NEZ | 89,4 | 77,4 | 72,2 | 74,6 | 89,8 | 90,2 |
| «Azərneftyağ» NEZ | 52,5 | 52,3 | 52,3 | 81,7 | 93,5 | 94,2 |

Mənbə:Cədvəl NEZ-lərin illik hesabatlarının məlumatları əsasında tərtib edilmişdir.

Cədvəldən göründüyü kimi, əgər 2008-ci ildə H.Əliyev ad. BNEZ-də açıq rəngli neft məhsullarının xüsusi çəkisi emal dərinliyi səviyyəsindən 14,8% çox olmuşdursa, sonrakı illərdə emal dərinliyinin səviyyəsi, əvvəlki göstəricini əsaslı şəkildə üstələmişdir. Bu da «Azərneftyağ» NEZ-dən zavoda daxil olan xammalların təkrar emal həcminin artması ilə müşahidə edilir. «Azərneftyağ» NEZ-də açıq rəngli neft məhsullarının xüsusi çəkisi 52,3% олдуьу halda, emal dərinliyi göstəricisi yüksələn xətlə artaraq, 2008-ci ildə 81,7%-dən 2012-си ildə 94,2%-ə çatmışdır.

Tədqiq edilən neft emalı zavodlarında istehsalat prosesləri logistikasının təşkilini ölkədə əsas növ neft məhsullarının istehsal dinamikasını formalaşdırmışdır (bax: cədvəl 3).

Təhlil göstərir ki, 2012-си ildə 2000-ci il nisbətən bütün növ avtomobil benzinlərinin həcmi 2,4дяфя; dizel yanacağı – 136,4%, neft bitumu – 15,7 dəfə; neft koksu – 20,8 dəfə artmışdır. Həmin dövrdə ağ neftin həcmi – 17,1%; kimya sənayesi üçün ilkin benzin fraksiyasının həcmi – 17,1%; soba mazutunun həcmi isə – 93% azalmışdır.

Ağ neftin həcminin azalması, bir tərəfdən – emal prosesinə cəlb edilən xam neftin keyfiyyət parametrləri ilə izah edilsə də, digər tərəfdən – həmin məhsula olan tələbatın azalması ilə əlaqədar olmuşdur. Soba mazutunun həcminin kəskin azalması yuxarıda qeyd edilən səbəblərlə şərtləşmişdir.

Bu fəsildə ayrı-ayrı NEZ-lər üzrə neft məhsullarının proqnoz tapşırığına uyğun istehsalının mövcud vəziyyəti ətraflı təhlil edilmiş, orada məhsullara tətbiq edilən normativ-texniki sənədlərin təsnifatı verilmişdir. Dissertasiya işində NEZ-lərdə bölüşdürücü logistikanın təşkilinə qiymət verilmiş, neft məhsullarının bölüşdürülməsinin NEZ-lər üzrə prinsipial sxemi tərtib edilmiş, neft məhsullarının daxili və xarici bazarlar üzrə bölüşdürülməsi sxem şəklində əks etdirilmiş, tələbatçılara göndərilən neft məhsulları növlər üzrə sistemləşdirilmiş, ixracın həcmi və dinamikası illər, ölkələr və məhsul növləri üzrə geniş təhlil olunmuşdur.

**Cədvəl 3.**

**2000-2012cu illərdə Azərbaycanda əsas növ neft məhsullarının istehsalının dinamikası**

| Məhsulların adları | Ölçü vahidi | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 2000 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2012 |
| 1. Avtomobil benzini | min ton | 537,0 | 719,9 | 852,4 | 906,2 | 1042,6 | 1129,4 | 1320 | 1297 |
| | faiz | 100,0 | 134,1 | 158,7 | 168,8 | 194,2 | 210,4 | 245,8 | 2,4 дяфя |
| 2. Kimya üçün benzin | min ton | 200,0 | 201,1 | 300 | 350 | 332,6 | 599 | 307,1 | 148,7 |
| | faiz | 100,0 | 106,1 | 132,3 | 127,2 | 130,6 | 115,9 | 153,5 | 74,4 |
| 3. Ağ neft | min ton | 755,8 | 654,5 | 646,8 | 747,1 | 737,1 | 792,8 | 771 | 626,4 |
| | faiz | 100,0 | 86,6 | 85,6 | 98,8 | 97,5 | 104,9 | 102,0 | 82,9 |
| 4. Soba mazutu | min ton | 4072 | 2470 | 2521 | 3061 | 2899 | 2340 | 1276 | 287 |
| | faiz | 100,0 | 60,7 | 61,9 | 75,2 | 71,2 | 69,1 | 31,3 | 7,1 |
| 5. Dizel yanacağı | min ton | 1957 | 1641 | 1789 | 2101 | 2096 | 2109 | 2526 | 2669 |
| | faiz | 100,0 | 83,9 | 91,4 | 107,4 | 107,1 | 107,8 | 129,1 | 136,4 |
| 6. Neft bitumu | min ton | 18,3 | 79,3 | 103,5 | 128,3 | 161,9 | 182,9 | 220,4 | 288,1 |
| | faiz | 100,0 | 4,3 dəfə | 5,6 dəfə | 7,0 dəfə | 8,8 dəfə | 10 dəfə | 12 dəfə | 15,7dəfə |
| 7. Neft koksu | min ton | 11,1 | 20,8 | 25,9 | 11,6 | 67,2 | 84,7 | 169,0 | 231 |
| | faiz | 100,0 | 187,4 | 2,3 dəfə | 104,5 | 6 dəfə | 7,6 dəfə | 15,2 dəfə | 20,8 dəfə |

Mənbə: Cədvəl «Azərbaycanın sənayesi» statistik məcmuənin əsasında tərtib edilib hesablanmışdır. Bakı, «DSK»,2013,s.115

Dünya bazarında enerji daşıyıcılarının qiymətində baş verən dəyişiklik, yaranan iqtisadi böhran ölkəmizdə istehsal edilən neft məhsullarının orta qiymətinin dəyişilməsinə də öz təsirini göstərmişdir. İxrac edilən neft məhsullarının orta qiyməti haqqında məlumatlar 4 saylı cədvəldə əks etdirilmişdir.

**Cədvəl 4.**

**Azərbaycandan ixrac edilən neft məhsullarının orta qiyməti (ton/doll)**

| İllər | Avto-mobil benzini | Ağ neft | Dizel yanacağı (qazoyl) | Yana-caq mazutu | Yağlar və sürtgü material-ları | Neft koksu | Neft bitumu |
|---|---|---|---|---|---|---|---|
| 2000 | 262,4 | 232,2 | 225,4 | 75,0 | 136,1 | 56,7 | - |
| 2005 | 463,8 | 438,0 | 434,9 | 237,0 | 252,6 | 60,0 | 115,0 |
| 2006 | 587,0 | 581,5 | 538,6 | 285,7 | 366,2 | 60,0 | 208,7 |
| 2007 | 672,8 | 636,9 | 594,6 | 371,7 | 387,0 | 60,0 | 257,5 |
| 2008 | 793,8 | 961,8 | 756,8 | 512,0 | 471,2 | 60,0 | 281,9 |
| 2012 | 987,7 | 948 | 835,4 | 261 | 752,8 | 80,7 | 300,4 |
| 2000-2012-ci illərdə artım tempi (%) | 3,8 dəfə | 4,1 dəfə | 3,7 dəfə | 3,5 dəfə | 4,6 dəfə | 1,4 dəfə | 2,6dəfə |

Mənbə:Cədvəl 2005-2012-си illər üzrə Azərbaycanın xarici ticarəti Statistik məcmuəsinin məlumatları əsasında hesablanmışdır.

Cədvəlin məlumatlarından göründüyü kimi, 2012-cu ilin əvvəlinədək ixrac edilən bütün növ neft və neft məhsullarının qiyməti yüksələn xətlə artmışdır. 2000-2012-ci illərdə xarici bazarda satılan bir ton avtomobil benzini –725,3 doll., ağ neft – 716 doll., dizel yanacağı-610 doll., yanacaq mazutu – 186 doll., yağlar və sürtgü materialları – 616,7 doll., neft koksu – 24 doll., neft bitumu ися – 185,4 doll bahalaşmışdır.

İşdə logistika prosesinin təşkili baxımından neft məhsullarının ilin sonuna anbarda qalığının səviyyəsi qiymətləndirilmiş, onun digər iqtisadi fəaliyyət sahələrinə təsiri müəyyən edilmişdir.

Dissertasiya işinin **«Neft emalı müəssisələrində logistika fəaliyyətinin təkmilləşdirilməsinin başlıca istiqamətləri»** adlı üçüncü fəslində logistika strategiyasının həyata keçirilməsi mexanizminin və müəssisələrdə logistikanın idarə edilməsi sisteminin təkmilləşdirilməsi yolları göstərilmişdir.

Qeyd edilir ki, ölkənin NEZ-lərində logistika strategiyasının formalaşması və həyata keçirilməsi üzrə əməliyyat menecmentinin səmərəli təşkili müstəsna əhəmiyyət kəsb edir. Bu məqsədlə strateji inkişafın başlıca istiqaməti kimi əməliyyat strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi vacibdir. NEZ-lərin aşağı güclə işləməsi, onların ƏİF-in yüksək dərəcədə aşınması, innovasiya fəaliyyətinin qeyri-mükəmməl təşkili, insan resurslarından səmərəsiz istifadəsi müəssisələrdə proseslərin və əməliyyatların səmərəli təşkilini və onun mühüm istiqamətlərini müəyyən etməyi ön plana çəkir.

İşdə həlli vacib olan tədbirlərin təsnifatı verilmiş, strateji inkişaf istiqamətlərinin alt-sistemləri və onların icra mexanizminin quruluşu sxem şəklində təklif edilmişdir. Strateji istiqamətlərdən biri kimi restrukturizasiya qeyd edilir. Bununla əlaqədar hesab edirik ki, tədqiq edilən müəssisələrin aşağı güclə işləməsi, «Azneftyağ»NEZ-in bir çox qurğularının işinin dayandırılması bütünlükdə həmin zavodun tədriclə sökülməsi sahədə restrukturizasiyanın sürətləndirilməsinə və vahid NEZ-in təşkilinə daha çox diqqət yetirməyi tələb edir.

Bazar münasibətləri sisteminin mürəkkəbliyi və dinamikliyi müəssisənin material resursları ilə təminatı prosesinin keyfiyyət xarakteristikasına olan yüksək tələbləri, çevik istehsal sisteminin yaradılmasını, istehsalın fasiləsiz maddi-texniki təminatını, hazır məhsulun tam həcmdə satışını, istehlakçılara yüksək səviyyəli xidmət göstərmək işini, ehtiyatların optimal idarə və s. bu kimi məsələlərin əlverişli formada əlaqələndirilməsi və həyata keçirilməsini tələb edir. Bütün bunlara nail olmaq üçün neft emalı müəssisələrində istehsal edilən məhsulların bölüşdürülməsi siyasətinin formalaşması və həyata keçirilməsi prosesi (bax şəkil 2.), ümumi məqsədi və xüsusi vəzifələri müəyyən edilməlidir.

Fikrimizcə, aşağı güclə işləyən neft emalı zavodlarında logistikanın konseptual ideyası-ən az maddi, əmək və maliyyə vəsaitləri sərf etməklə daxili və xarici bazarlarda baş verən dəyişikliklərə uyğunlaşmalı və rəqabət üzərində iqtisadi üstünlüklərə nail olmaqdır.




**Şəkil 2. İstehsalçı müəssisələrin məhsullarının bölüşdürülməsi siyasətinin formalaşması və həyata keçirilməsi prosesi**

Həmin ideyanı həyata keçirmək üçün adı çəkilən xərclər axınlarının funksional və səmərəli sistemi yaradılmalıdır. Bu sistemin təsir mexanizmini hərəkətə gətirmək üçün işdə logistikanın həyata keçirilməsi vacib olan vəzifələri müəyyən edilmişdir. Bazar iqtisadiyyatı şəraitində NEZ-lərin strategiyası ilk növbədə bazarda baş verən keyfiyyət dəyişikliklərinin yaratdığı üstünlüklərdən yararlanmağa istiqamətlənməli və strateji planlaşmaya əsaslanmalıdır.

Lakin logistik planlaşdırma müəssisənin davranış strategiyasının işlənib hazırlanması ilə başa çatmır. Neft emalı müəssisələrinin istehsal-təsərrüfat və maliyyə fəaliyyətini planlaşdırarkən nəzərə almaq lazımdır

ki, logistika siyasəti müəssisənin ümumi təsərrüfatı strategiyasının tərkib hissəsi olan marketinq strategiyası ilə üzvi sürətdə bağlıdır. Adı çəkilən strategiyanın həyata keçirilməsi üçün taktiki nəzarətin düzgün təşkili təmin edilməlidir. İşdə həmin nəzarətin təklif edilən prinsipal sxemi verilmişdir. Logistika strategiyasının ilkin icra aləti material resurslarının planlaşdırılmasıdır. NEZ-lər aşağı güclə işlədiklərindən material resurslarına olan tələbatın müəyyən edilməsi və planlaşdırılması sistem ilə istehsalın fasiləsizliyinə təminat yaradan qaydada təşkil olunmalıdır. Bu məqsədlə işdə NEZ-lərdə material resurslarının planlaşdırılması prosesinin əsas mərhələləri göstərilmişdir

Biznes prosesinin tam miqyasda icrasını təmin etmək üçün işçilərin stimullaşdırılması sisteminin işlənilməsi vacibdir. Bu zaman stimullaşdırma sistemi emal müəssisələrinin məqsədi və istehsalın son nəticəsi ilə tam şəkildə uzlaşdırılması; stimullaşdırma sisteminin müəssisədən kənarda bölüşdürülməsi və işçilərin özlərinin mükafat formalarının müəyyən edilməsində iştirakı vacibdir. Həyatin yeniləşməsi prosesində fərdi öyrətmənin təşkili diqqət mərkəzində saxlanılmalıdır. Bu zaman işçilərin inkişafı, onların fasiləsiz öyrədilməsi, fəaliyyətdə bilik və vərdişlərin aşılanmasına diqqət yetirilməli və kadrlardan səmərəli istifadə üçün sistem xarakterli və məqsədəyönümlü tədbirlərin həyata keçirilməsinə üstünlük verilməlidir. Tədqiq edilən neft emalı zavodlarında logistika funksiyasının icrası ayrı-ayrı idarə orqanları tərəfindən həyata keçirilir. NEZ-lərdə çoxtəyinatlı məhsullar istehsal edildiyindən idarə orqanlarının strukturunun təkmilləşdirilməsi zərurəti yaranmışdır. Yeni neft-kimya kompleksinin yaradılması zamanı orada logistikanın idarə edilməsinin təşkilati strukturunun formalaşması üçün təcrübədə istifadə edilən-xətti, funksional, matrisli və divizional nümunəvi idarəetmə strukturlarından istifadə etmək mümkündür. Mövcud NEZ-lərin yaxın 10 il ərzində fəaliyyətinin davam etdirilməsi, eləcə də ARDNŞ-də logistika sisteminin şaquli və üfüqi formada təşkili funksiyaların müxtəlif idarəetmə orqanları arasında bölüşdürülməsi, bir çox hallarda bu prosesdə paralelliyə yol verilməsi, inzibatçılıq üsulun davam etməsi, logistika funksiyasını icra edən işçilərin səlahiyyətlərinin məhdudlaşdırılması və s. NEZ-lərdə logistika işinin təşkili üzrə funksiyalararası kamandanın yaradılmasını zəruri edir. Belə kamandanın yaradıldığı şəraitdə müəssisənin funksional bölmələrinin mütəxəssisləri ümumi logistik məsələlərin həlli üzərində kollektiv formada çalışmalıdırlar. Yeni neft emalı və kimya kompleksinin yarandığı və zavodların birləşdirildiyi şəraitdə logistikanın üzvi tərkib hissəsi olan, istehsal və

bölüşdürücü logistikanın icrasını təmin edən marketinqin təşkili və idarə edilməsi bazar iqtisadiyyatı modelinin tələblərinə uyğunlaşdırılmalıdır. Beynəlxalq təcrübə göstərir ki, müxtəlif növlü böyük həcmdə məhsul istehsal edən, istehsal və satış üçün xüsusi şərait tələb olunan müəssisələrdə marketinq xidmətinin strukturu məhsul prinsipi üzrə təşkil edilir. Belə struktur adətən kimya, neft – kimya, neft emalı, metallurgiya sənayesində tətbiq edilir. Bu zaman vəzifələri dəqiq müəyyən edilmiş menecerlərdən ibarət marketinq qrupu təşkil edilir və onun rəhbəri kommersiya (marketinq) məsələləri üzrə direktor müavininə tabe edilir. Həmin təcrübənin üstünlüyünü nəzərə alaraq, yeni yaradılacaq neft emalı və kimya kompleksində marketinqin idarə edilməsinin funksional məhsul və funksional bazar prinsipləri üzrə formalaşan nümunəvi təşkilati istifadə olunması məqsədəuyğun olardı. İşdə həmin təşkilati strukturların təcrübədə geniş istifadə edilən quruluşa verilmiş, NEZ-lərdə marketinq fəaliyyətinin səmərəli təşkili üzrə əməli tövsiyələr irəli sürülmüşdür. Neft emalı müəssisələrində logistika fəaliyyəti müxtəlif idarəetmə səviyyələri üzrə qeyri-bərabər həyata keçirildiyindən bu prosesdə xərclərin səmərəli idarə edilməsi məsələsi müstəsna əhəmiyyət kəsb edir. Bu məqsədlə işdə logistika xərclərinin müxtəlif meyarlar üzrə təsnifatını özündə əks etdirən sxem təklif edilmiş, xərclərin lokallaşdırılması və strukturunun rasional tərtibatı üçün NEZ-lərdə həyata keçirilərək tədbirlərin istiqamətləri göstərilmişdir.

Dissertasiya işinin sonunda Azərbaycanın neft emalı müəssisələrində logistika fəaliyyətinin səmərəli təşkili və idarə edilməsi üzrə aparılan kompleks tədqiqat nəticəsində işlənib hazırlanan təklif və tövsiyələr göstərilmişdir.

Dissertasiya işinin əsas müddəaları, əldə olunmuş nəticə və təkliflər müəllifin dərc olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır.


1. Neft məhsullarının daxili və xarici bazarlarda satışın təşkili və onların rəqabət qabiliyyətinin yüksəldilməsi(həmmüəllif Əliyev T.N.) AMEA-nın Xəbərləri Humanitar və İctimai Elmlər seriyası, iqtisadiyyat №2. Bakı, «Elm», 2007, 49-54s.
2. Neft emalı müəssisələrində istehsalın səmərəli təşkili və idarə edilməsi prosesində logistika konsepsiyasının formalaşdırılmasının metodiki aspektləri. (həmmüəllif Əliyev T.N.) //AMEA-nın Xəbərləri. Elm və innovasiya №3. Bakı, «Elm», 2010, 69-73s.
3. Azərbaycanın xarici ticarət dövriyyəsində ixrac məhsullarının quruluşunun dəyişilməsi meylləri. AMEA-nın Xəbərləri Humanitar

və İctimai Elmlər seriyası, İqtisadiyyat №3, Bakı, «Elm», 2007, 180-183s.

4. Neft emalı müəssisələrində logistika sisteminin təşkilinin metodiki aspektləri. Aspirantların və gənc tədqiqatçıların respublika elmi konfransının məruzələrinin tezisləri. Bakı, 5-6 may, 2008, 154-157s.
5. H.Əliyev ad.Bakı neft emalı zavodunun məhsullarının daxili bazarda tələbatçılara çatdırılması mexanizmi. // Azərabycan Ali Texniki Məktəblərin Xəbərləri №2 (66) Bakı, ADNA, 2010, 50-54s.
6. Azərbaycanın neft emalı müəssisələrində marketinq fəaliyyətinin təşkili. «Azərbaycan iqtisadiyyatına keçid dövrünün başa çatması: təhlil və nəticələr Milli inkişaf modelinin formalaşması problemləri» mövzusunda Respublika Elmi-praktik konfransının materialları. Bakı, Şərq-Qərb, 2010, 352-354s.
7. Logistika strategiyasının həyata keçirilməsi mexanizmi. //AMEA-nın Xəbərləri. Humanitar və ictimai elmlər seriyası. İqtisadiyyat №4. Bakı, «Elm», 2010
8. Организация распределительной логистики на НПЗ Азербайджана «Нефть, газ и бизнес» №12. Москва,2009,с 72-77.
9. Azərbaycanın neft emalı müəssisələrində bölüşdürücü logistika xidmətinin təşkilinin bəzi aspektləri. Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı»mövzusunda Beynəlxalq ERK-nın materialları. Bakı, «Elm», 2011, 235-239s.

**Алиага Ханлар оглы Зейналов**

# Эффективная организация и управление логистической деятельностью на нефтеперерабатывающих предприятиях Азербайджана

## РЕЗЮМЕ

Работа состоит из введения, трех глав, выводов и списка использованной литературы.

Во **введении** обосновывается актуальность темы, указывается степень изученности проблемы, цель, задачи, объект и предмет исследования, излагаются теоретико-методологические основы, информационная база и методы исследования, а также научная новизна, практическая значимость и апробация работы.

В первой главе **«Теоретико-методологические аспекты организации и управления логистикой на нефтеперерабатывающих предприятиях»** излагается сущность, содержание логистики и исторические этапы её развития, теоретико-методологические аспекты организации и формирования концепции логистики.

Во второй главе **«Анализ современного состояния организации и управления логистической деятельностью на нефтеперерабатывающих предприятиях»** анализируется состояние обеспеченности сырьем, использования материальных, топливно-энергетических ресурсов на НПЗ; организация логистики производственных процессов и организация распорядительной логистики на обследуемых предприятиях.

В третьей главе **«Основные направления совершенствования логистической деятельности на нефтеперерабатывающих предприятиях»** определены пути совершенствования системы управления логистикой и совершенствования механизма стратегии логистики.

В заключении подведены итоги и выдвинуты ряд предложений и рекомендаций теоретического и практического характера.

**Aliaga Xanlar oglı Zeynalov**

## Effective organization and management of logistic activities at refineries of Azerbaijan

### Summary

The work consists of an introduction, three chapters, conclusions and bibliography.
In the introduction the relevance of the topic, specify the extent of the problem, purpose, objectives, object and subject of study outlines the theoretical and methodological foundations, information base and research methods, as well as scientific novelty, practical significance and testing work.
In the first chapter, "Theoretical aspects of the organization and logistics management in refineries" describes the essence, content and logistics historical stages of its development, the theoretical and methodological aspects of the organization and the formation of the concept of logistics.
In the second chapter, "The Current State of the organization and management of logistic activities in refineries" examines the state of availability of raw materials, use of material, fuel and energy resources at the refinery; business logic sticks manufacturing processes and business-tive logistics ordered in surveyed enterprises.
In the third chapter "Basic directions of logistics activities in refineries" identified ways to improve logistics management system and improve the mechanism of logistics strategy.
In conclusion, summarized and put forward a number of proposals and recommendations of the theoretical and practical nature.

**АЗЕРБАЙДЖАНСКАЯ НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

*На правах рукописи*

**АЛИАГА ХАНЛАР ОГЛЫ ЗЕЙНАЛОВ**

# ЭФФЕКТИВНАЯ ОРГАНИЗАЦИЯ И УПРАВЛЕНИЕ ЛОГИСТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТЬЮ НА НЕФТЕПЕРЕРАБАТЫВАЮЩИХ ПРЕДПРИЯТИЯХ АЗЕРБАЙДЖАНА

**Специальность: 5311.01 –Организация и управление предприятиями**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание научной степени доктора философии по экономике**

**Баку – 2014**